




*Vətən bölünməzdir!*

# LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№-07-08 (8553 ) ◉ Çərşənbə, 16 aprel 2025-ci il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉Qiyməti 50 qəpik


## İCRA BAŞÇISININ SƏYYAR GÖRÜŞ-QƏBULLARI

## Aşağı Nüvədi qəsəbəsində



**Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov təqvim planına uyğun olaraq növbəti səyyar qəbul-görüşünü Aşağı Nüvədi qəsəbəsinin və Küvənil kəndinin sakinləri ilə keçirib.**

İcra başçısı ötən səyyar görüşdə yerli sakinlər tərəfindən qaldırılan məsələlərin icra vəziyyəti barədə məlumat verib və bildirib ki, heç bir müraciət diqqətdən kənar qalmır və qaldırılan bütün məsələlər şəxsən onun nəzarəti altındadır.-Taleh Qaraşov icra hakimiyyətinin səlahiyyətləri çərçivəsində həll olunan bütün məsələlərin müsbət həll olunduğunu, icra hakimiyyətinin səlahiyyətlərinə aid olmayan məsələlər barədə aidiyyəti qurumlara rəsmi müraciətlər ünvanlandığını və nəticəsi barədə vətəndaşlara qanunamüvafiq vaxtda və formada cavablar verildiyini qeyd edib.

Vətəndaşların maneəsiz, könüllü şəkildə fikir və istəklərinin rayon rəhbərliyinə çatdırılmasına tam şəraitin yaradıldığı görüş-qəbulda Aşağı Nüvədi qəsəbəsinin və Küvənil kəndinin sakinləri onları narahat edən problemləri birbaşa icra başçısına söyləyiblər.

Yerli sakinlər dövlət idarələrinin və bütün xidmət sahələrinin nümayəndələrinin səyyar görüşdə iştirakının qaldırdıqları problemlərin yerindəcə həllinə köməklik etməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıblar.

Aşağı Nüvədi qəsəbəsinin və Küvənil kəndinin sakinləri insan amilinin sosial dövlət quruculuğu prosesində mərkəzdə dayanmasına və sosial-iqtisadi layihələrin uğurlu tətbiqi nəticəsində gündəlik həyat səviyyələrinin hiss olunacaq şəkildə artmasına görə dövlət başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını qeyd ediblər.

### Separadi kəndində



Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov növbəti səyyar görüş-qəbulunu Separadi və Tükəvilə kəndlərinin sakinləri ilə keçirib. Səyyar görüşdə icra hakimiyyəti aparatının məsul şəxsləri, rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar təşkilatların və xidmət sahələrinin rəhbər işçiləri də iştirak ediblər.

İcra başçısı cənab Prezidentin göstəriş və tövsiyələrinə uyğun olaraq vətəndaşların müraciətlərinə həssas yanaşılması istiqamətində məmurların yerlərdə insanlarla üzbəüz dialoq qurmasının önəmindən danışıb. Onun sözlərinə görə, ölkə başçısının uğurlu sosial-iqtisadi siyasətinin mərkəzində vətəndaş rifahı dayanır ki, sosial müdafiə və aktiv məşğulluq proqramlarının uğurla davam etdirilməsi, əhəmiyyətli dərəcədə genişlənməsi və sosial təminat sisteminin dəfələrlə güclənməsi sözügedən məqsədə xidmət edir.

Taleh Qaraşov ötən görüş-qəbulda qaldırılan məsələlərin icra vəziyyəti barədə yerli sakinlərə məlumat verib, heç bir müraciətin diqqətdən kənar qalmadığını vurğulayıb.

Separadi və Tükəvilə kəndlərinin sakinləri fikir və istəklərini sərbəst şəkildə ifadə edərək, onları maraqlandıran və narahat edən məsələlər barədə icra başçısı ilə açıq, sərbəst və könüllü şəkildə dialoq qurublar. Yerli sakinlər ölkəmizdə sosial inkişaf istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu bildiriblər və buna görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

**“Lənkəran”**

## Lənkəranda abadlıq, təmir-bərpa işləri geniş vüsət alıb

*Şəhərimiz gündən-günə gözəlləşir!*

















**Lənkəran rayonunun sosial-iqtisadi inkişafına dair qəbul edilmiş dövlət proqramlarının icrası nəticəsində uğurlu infrastruktur layihələrin həyata keçirilməsi davam etdirilir. Belə ki, kommunal və sosial xidmətlərin həcmi və keyfiyyəti daha da yaxşılaşdırılmış, abadlıq işləri geniş vüsət almış, yeni parklar salınmış və ya əsaslı təmir edilərək yenidən qurulmuşdur. Lənkəran şəhərinin bir neçə küçəsində səkilər yenidən qurulmuş, eyni zamanda şəhər küçələri asfaltlaşdırılmış və kəndara yollarında təmir-bərpa işləri aparılmışdır.**

Hazırda şəhərdəki səkilərə tametlərin döşənməsi, deformasiyaya uğrayan səki daşlarının yeniləri ilə əvəzlənməsi, ağac diblərinin ağardılması, bordurlərin rənglənməsi, yolboyu hasarların ağlay daşlarla üzlənməsi, təmiri və rənglənməsi işləri davam etdirilir.

Qeyd edək ki, Tədbilər Planına uyğun olaraq abadlıq-quruculuq işlərinin il sonunadək aparılması nəzərdə tutulur.

**“Lənkəran”**

# Minaya düşərək həlak olmuş hərbçimiz dəfn olundu

## *Onun xatirəsi ürəklərdə yaşayacaq*













**Aprelin 7-də Cəbrayıl rayonunda minaya düşərək həlak olmuş Dövlət Sərhəd Xidmətinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu Əsgər Nicat oğlu Musazadə**



**ilə aprelin 7-də doğulub boya-başa çatdığı Lənkəran rayonunun Göyşaban kəndində vida mərasimi keçirilib. Vida mərasimində Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.**

Vida mərasimindən sonra Əsgər Musazadə kənd qəbirstanlığında torpağa tapşırılıb.

Qeyd edək ki, Ə.Musazadə iki il idi ki, Dövlət Sərhəd Xidmətinin (DSX) müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi. (MAXE).

Usta ailəsində böyüyən Əsgər Musayev evin 2 uşağından böyüyüdür. Orta təhsilli hərbçimiz subay olub.





## Taleh Qaraşov hərbi qulluqçu Əsgər Musazadənin və itkin düşmüş balıqçı Mahmud İbayevin yas mərasimində iştirak edib

**Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, yerli icra hakimiyyəti aparatının məsul şəxsləri, hüquq-mühafizə orqanlarının rəhbərləri Cəbrayıl rayonunda sursat partlayışı nəticəsində həlak olan hərbi qulluqçu Əsgər Musazadənin, eləcə də bir müddət əvvəl Xəzər dənizində itkin düşmüş və cənazəsi İrandan Azərbaycana gətirilərək dəfn edilmiş balıqçı Mahmud İbayevin yas mərasimində iştirak ediblər.**

İcra başçısı vəfat etmiş şəxslərin ailələrinə başsağlığı verib, dövlətin hər zaman vətəndaşlarının yanında olduğunu bildirib.

**Allah rəhmət eləsin.**

**"Lənkəran"**

**2016-cı ilin aprel döyüşləri müzəffər ordumuzun gücünü, əzmini, yüksək peşəkarlığını dünyaya nümayiş etdirdi. Dördgünlük döyüşlərdə təcavüzkar düşmənin 320 nəfərdən artıq canlı qüvvəsi məhv edildi, 500-dən çox hərbi qulluqçusu yaralandı, 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı. Mübariz Azərbaycan ordusu düşmənin istənilən təxribatına hər an cavab verməyə hazır olduğunu sübuta yetirdi. Aprel zəfəri şanlı qələbəyə aparan yolun başlanğıcı oldu.**





# Lənkəranın Aprel şəhidləri

## *Onların xatirəsi daim əziz tutulur*

Ölkəmizin hərb tarixinə qızıl hərflərlə yazılmış aprel döyüşlərində iki lənkəranlı gənc şəhidlik zərvəsinə ucalıb. Rusif Ağayev 1987-ci ilin aprel ayının 16-da Lənkəran rayonunun Hirkan qəsəbəsində anadan olub. Halal, zəhmətkeş ailədə böyüyüb.

Babası Rəhim Ağayev uzun illər tikinti sahəsində səmərəli fəaliyyətinə görə keçmiş SSRİ-nin ən nüfuzlu ordeni - "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunub. Nənəsi də sovxozda qabaqcıl çaybecərən, atası İbrahim sürücü, anası Rəsmiyə xanım çayçılıq sovxozunda fəhlə işləyib.

Rusif 2005-ci ildə Azərbaycanın Hərbi Dəniz Qüvvələrinin tərkibində həqiqi hərbi xidmətə başlayıb. Xidmət dövründə nümunəvi əsgər kimi tanınıb. Müdafiə naziri hərbi hissəyə gəldiyi zaman Rusif Ağayev ona Xüsusi Təyinatlı Qüvvələrin tərkibində xidmət etmək arzusunda olduğunu bildirib. Sınaq imtahanlarından uğurla keçərək müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilib. Hərbi hissədə nümunəvi, təcrübəli miçman kimi vəzifə borcunu şərəflə, ləyaqətlə yerinə yetirib.

Aprel döyüşlərində fədakarlıqla vuruşaraq hünər, şücaət göstərib. Talış yüksəkliyinin alınmasında, ələ keçirdikləri strateji mövqelərin qorunmasında yüksək bacarığı, peşəkarlığı ilə fərqlənib.

Sonuncu dəfə aprelin 6-da atası İbrahim və həyat yoldaşı Mahruh xanımla telefonla əlaqə saxlayıb. Deyib ki, məndən nigaran olmayın, uşaqları-Zəhranı və Əlini sizə tapşırıram. Balaca Zəhra deyib ki, ata tez gəl də, axı səni görmək istəyirəm.

Günorta saatlarında duman dağlardan çəkiləndə düşmən snayperindən açılan atəş nəticəsində Rusif ağır yaralanıb. İşğaldan azad etdikləri yüksəklikdə də əbədiyyətə qovuşub. Doğma Hirkan qəsəbəsində böyük izdihamla torpağa tapşırılıb.

Ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif olunub. Xatirəsi əbədiləşdirilərək, bir küçəyə adı verilib.

Əsgər Əlizaman İslamov Aprel döyüşlərinin ən gənc şəhidlərindən biridir. 1997-ci il iyun ayının 12-də Lənkəran rayonunun Cil kəndində anadan olub. Əlizaman 2016-cı ilin aprelin 2-də Azərbaycan-Ermənistan təmas xəttində, Tərtər rayonunun Talış kəndi istiqamətində erməni təxribatının qarşısını alarkən şəhidlik zirvəsinə ucalıb. Doğma Cil kəndində torpağa tapşırılıb. Evin tək oğlu idi.

Ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə şəhid Əlizaman İslamov göstərdiyi igidliyə görə ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalla təltif edilib.

Rayonda Aprel şəhidlərinin xatirəsi daim əziz tutulur. Lənkəran Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə hər il Aprel şəhidlərinin anım mərasimləri keçirilir, məzarları ziyarət olunur, keçdikləri şərəfli, qəhrəmanlıqlarla dolu döyüş yolundan söhbət açılır. Şəhidlərin ailə üzvlərinin çətinliklərinə və problemlərinə dövlətimiz tərəfindən yüksək diqqət və qayğı göstərilir.

**Ə.AĞAXANOĞLU**

# CƏSUR SNAYPER

***Sizə bir snayperin həyatından danışmaq istəyirəm. Onun adı İkinci Dünya Müharibəsinin qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılıb. O, əfsanəvi Həzi Aslanovun həmyerlisi Baloğlan Abbasovdur...***

Sizə bir snayperin həyatından danışmaq istəyirəm. Onun adı İkinci Dünya Müharibəsinin qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılıb. O, əfsanəvi Həzi Aslanovun həmyerlisi Baloğlan Abbasovdur...



## Qəhrəmanın həyat yoluna qısa nəzər

Baloğlan Mirzağa oğlu Abbasov 15 fevral 1919-cu ildə Lənkəran rayonun Sütəmurdov kəndində dünyaya göz açıb. Şərqin ilk Demokratik Respublikasında doğulsa da tale elə gətirdi ki, sovet Azərbaycanının vətəndaşı oldu. Baloğlan təhsilini başa vuranda isə Azərbaycanda repressiya küləyi əsirdi. Orta məktəbi bitirən kimi onu ordu sıralara çağırırlar. İki il sonra - 1941-ci ildə Hitler Almaniyasının SSRİ-yə hücumu zamanı Baloğlan Abbasov döyüşlərə atılır. Ukrayna və Stalinqrad cəbhələrində sərrast atıcı kimi əsgər yoldaşlarından seçilir.

Cəsur döyüşçü xidmət etdiyi hissədə snayper hərəkatının təşəbbüsçüsü olur.

## Cəbhədən gələn xoş soraq

Baloğlan Abbasov döyüşlərdə şücaət göstərdiyi bir vaxtda anası Şərəf xala səhər-axşam yollara çıxıb oğlundan bir soraq gözləyirdi. Günlər həftələrə, həftələr aylara çevrilmişdi, il olmuşdu, ancaq xəbər yox idi ki, yox idi. Və bir gün cəbhədən doğma vətənə qəhrəmanın xoş sədası gəlir. Qəzetlər keçmiş kolxozçu, indi isə baş serjant olan Baloğlan Abbasovun şəklini çap etmişdilər. Xəbərdə isə onun faşistlərə qarşı şücaətlə vuruşmasından bəhs olunurdu. Bu məlumatdan sonra raykom katibinin özü gəlib Şərəf xalanı təbrik edir və cəsarətli oğul böyütdüyü üçün komandanlığın təşəkkürünü yetirir. Baloğlanın döyüş medalı ilə təltif olunmasından danışır.

Bir snayper kimi Baloğlan Abbasovun şöhrəti artıq bütün sovet respublikalarına yayılmışdı. O, döyüş tapşırığının öhdəsindən məharətlə gəlirdi. Gah çardaqlara qalxır, gah zirzəmilərə enir, uçuq binaların bacalarından nişan alır, dağılmış divarların dibində pusqu qurur, səngərdən-səngərə keçirdi. Onun "şikarı" həmişə uğurlu olurdu. Təkcə ay yarım ərzində 60-dan çox hitlerçi öldürmüşdü. Cəsur snayperin hədəfi yalnız alman zabitləri idi.

*Əgər azərbaycanlı sədaqət andı içmək istəsə, qoy o, cəsarətlə Baloğlan Abbasovun adına and içsin*

## Uzun ayrılıqdan sonra vətəndə

Bir payız ayında Baloğlana məzuniyyət verilir. Vətəndə olduğu qısa müddətdə həmyerliləri ilə görüşlərə gedir. Lənkəranda, qonşu Masallı, Astara, Lerik də kolxozları gəzir, əsgər dostlarının alman qəsbkarlarına necə divan tutduqlarından danışırdı. Bakıya qayıdarkən onun radio ilə bütün Azərbaycan xalqı qarşısında çıxışı oldu: **"İnsan özünə nişanlı seçməkdə, dost axtarmaqda sərbəstdir. Ananı isə seçmək olmaz. Ana, ana olduğu üçün əzizdir, müqəddəsdir. Vətən də anadır, demək əzizdir, ona qahmar çıxmamaq olmaz. Biz başa düşürük ki, cəbhələrdə böyük rus torpağının hər qarışını müdafiə etməklə doğma Azərbaycanımızı müdafiə edirik. Ana vətən əmin ola bilər ki, onun yolunda öldü var, döndü yoxdur!"**

## Yenidən cəbhədə

Sentyabrın ortalarında Baloğlanın qulluq etdiyi birləşmə Mamay təpəsinə sığınmışdı. Bura cəbhənin ürəyi idi. Döyüş xətti bir saat da sabit qalmırdı. Mövqelər əldən-ələ keçirdi. Pusquda duran cəsur snayper isə gün ərzində gah düşmən arxasında gizlənir, gah da bölmələrinin içərilərinə düşməli olurdu. Heç vaxt özünü itirmir, soyuqqanlılığını pozmurdu. Əlində qumbara Volqada balıq ovlamağa çalışan hitlerçini Baloğlan "ovlayırdı".

## 24 yaşın tamamında bitən ömür

Vzvodun yolu Stalinqradın cənub-qərbində Nəriman qəsəbəsindən keçirdi. O, böyük inqilabçı Nəriman Nərimanovun adını daşıyan bu qəsəbəni düşməndən xilas edəcəyinə sevinirdi. Bu niyyətlə də başçılıq etdiyi 30 əsgəri döyüşə hazırlayırdı. Təəssüf ki, həmin döyüş onun üçün sonuncu oldu. Qəfil açılan düşmən gülləsi 1942-ci ilin 19 noyabrında 23 yaşlı gəncin həyatına son qoydu. O, dünyasını dəyişdi, amma əvəzində hazırladığı snayperlər cəbhələrdə hitlerçilərə qənim kəsildi.

## Ölümündən sonra

Rus yazıçısı Pavel Pavlenko "Pravda" qəzetinə verdiyi müsahibəsində belə fikir işlədir: **"Əgər azərbaycanlı sədaqət andı içmək istəsə, qoy o, cəsarətlə Baloğlan Abbasovun adına and içsin. Əgər o, bənzəmək istədiyi qəhrəmanın adını çəkmək istəsə, qoy cəsarətlə Baloğlan Abbasovun adını çəksin. Rəssamlar! Mən sizdən Baloğlan Abbasov haqqında tablolar yaratmağı xahiş edirəm. Heykəltəraşlar! Mən sizdən bu sadə igidin heykəlini yaratmağı xahiş edirəm. Ey insanlar! İyirmi üç yaşında əbədiyyətə qovuşan Baloğlan Abbasovu unutmayın".**

Stalinqrad cəbhəsinin hərbi şurasının qərarı ilə Baloğlan Abbasovun adı əbədi olaraq qvardiya diviziyası şəxsi heyətinin siyahısına daxil edilib. O, ölümündən sonra Qırmızı bayraq ordeni ilə təltif olunub. Qəhrəman snayperin adını əbədiləşdirmək məqsədilə doğulduğu Lənkəranın Sütəmurdov kəndinin görkəmli yerində ona abidə ucaldılıb.

**Günel HABİLQIZI**

# Ağadadaş Səmədovun şücaəti

## Ağadadaş Səmədovun Şücaəti bütün MDB ölkələrinə yayılmışdı

**Böyük Vətən Müharibəsi illərində misilsiz şücaət göstərmiş Azərbaycan övladlarının xidmətləri xalqın yaddaşında əbədi iz salıb. Tarixi ədalət bərpa olunur, hərbi mükafatlar öz sahiblərini tapır. Bunlardan biri Rusiya Federasiyasının Prezidenti (hazırda Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədr müavini) Dmitri Medvedevin 3 iyul 2008-ci ildə Azərbaycana rəsmi səfəri zamanı təqdim edilmişdir. Rusiya dövlətinin başçısı İkinci Dünya Müharibəsinin veteranı Ağadadaş Əbülqasım oğlu Səmədova 2-ci və 3-cü dərəcəli "Şöhrət" ordeni təqdim etmişdir. Bu mükafat düz 63 il idi ki, öz sahibinin yolunu gözləyirdi.**



Ağadadaş Səmədov 1924-cü il martın 10-da Lənkəran rayonunun Vilvan kəndində anadan olub. 1938-ci ildə Viravul kənd məktəbinin yeddinci sinfini bitirərək Lənkəran Subtropik Bitkilər Texnikumuna daxil olub. 1942-ci ilin iyulunda bu orta təhsil müəssisəsini başa vuraraq, həmin ilin oktyabr ayına qədər Lənkəran Maşın-Traktor Stansiyasında çalışmışdır.



1942-ci ilin oktyabrında Ə.Səmədov Silahlı Qüvvələrin sıralarına çağırılır. Hərbi xidmətə Dərbənddə yaradılan 77-ci Azərbaycan milli diviziyasmdakı 105-ci alayın 3-cü batalyonunda başlayıb. 1942-ci ilin dekabrında Mozdoka gələn diviziyanın döyüşçüləri Txaresk şəhərində hərbi and içərək Krasnodar ətrafında şiddətli döyüşlərdə iştirak ediblər. Ağadadaş 1943-cü ilin martında yaralanaraq hərbi hospitalda müalicə olunub. Yenidən döyüşən orduya qayıdan gənc əsgər bu dəfə 293-cü atıcı diviziyanın tərkibində Şimali Qafqazın azad olunmasmda fəalllıq göstərib və "İgidliyə görə" medalı ilə təltif olunub. Ukrayna uğrunda döyüşlərdə pulemyotçu Ağadadaş əsl hünər nümayiş etdirib. O, tək-tənha düşmənlə üz-üzə dayanaraq. 3 saat onlarla vuruşub. Pulemyotun gülləsi tükənəndə, ümid 2 qranata qalıb. Kəşfiyyata gələn əsgərlərdən biri bu barədə hissəni xəbərdar edəndən sonra döyüşçülərin inadlı müqaviməti ilə düşmən geri oturdulub. Döyüş hünərinə görə A.Səmədov Şöhrət ordeni ilə təltif edilib.

Ağadadaş Səmədov Polşa uğrunda döyüşlərdə də fərqlənib. Buradakı döyüş hünərinə görə yenidən Şöhrət ordeninə layiq görülüb. Almaniya uğrunda döyüşlərin birində isə Ağadadaş ölümcül yaralanmış komandiri əvəz edərək qələbəni təmin edib.

Şimali Qafqazdan Berlinədək döyüş yolu keçən Ağadadaş Səmədov 1946-cı ilin yanvarmda ordudan tərxis olunaraq doğma Vilvan kəndinə qayıdıb. Lakin qəhrəman döyüşçü kimi öz haqqına yalnız 2008-ci ildə çatıb. Onun sənədləri uzun müddət gizlədilib və hətta öldüyü barədə Moskvaya məlumat da çatdırılıb. Sonralar Moskva Mərkəzi Hərbi Arxivinə göndərilən məktublar öz müsbət nəticəsini verib. 2008-ci il iyulun 3-də Bakıya gələn Rusiya prezidenti Dmitri Medvedyev Ağadadaş Səmədovla şəxsən görüşərək cəbhədə layiq görüldüyü, lakin indiyə qədər almadığı II və III dərəcəli Şöhrət ordenlərini keçmiş cəbhəçinin yaxasına sancıb.





*Dostu və həmkəndlisi Musarza Əzimovla müharibə xatirələrindən söz açmağı xoşlayırdı*



Öz növbəsində 2008-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Ə.Səmədova "Oka" markalı avtomobil hədiyyə edib. Bir il sonra o, D.Medvedevin şəxsi dəvəti ilə Moskvada Qələbə günü münasibətilə keçirilən şənliklərdə iştirak edib. 2010-cu il mayın 9-da Ağadadaş Səmədov dörd azərbaycanlı Böyük Vətən Müharibəsi veteranının tərkibində Qırmızı Meydanda keçirilən Qələbə paradında iştirak etmişdir. O, həmçinin Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb.

Veteran həmişə öz həyat prinsiplərinə sadiq qalmış, cəmiyyətdə fəal mövqe tutmuş, əla ailə başçısı kimi özünü sübut etmiş, namusluluğu və namusluluğu ilə həmyerlilərinin şərəf və ehtiramını qazanmışdır.

Ağadadaş Səmədovun ən əziz arzusu azad Qarabağ torpağını görmək idi. Təəssüf ki, o, 2016-cı ilin avqustunda dünyasını dəyişdi. Lakin veteranın arzusunu onun nəvələri, eloğluları həyata keçirdilər. Onların şücaəti, qanları bahasına Şuşa və digər torpaqlarımçız azğın düşməndən azad olundu.

Bu gün əminliklə demək olar ki, "Şöhrət" ordenli Ağadadaş kişinin ruhu şaddır.

**Ağaddin BABAYEV**

# Görkəmli akademikə həsr olunmuş elmi seminar

## *Onun həyatı gənclərə örnəkdir*




**AMEA Lənkəran Regional Elmi Mərkəzi və Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə AMEA-nın 80 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində “Regionun görkəmli alimləri: akademik Mirməmməd Cavadzadənin həyat və elmi fəaliyyəti” mövzusunda elmi seminar keçirilib.**

Əvvəlcə Bakıdan gələn qonaqlar - Respublika Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü, hüquq elmləri doktoru, professor, əməkdar müəllim İbrahim Quliyev, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Urologiya kafedrasının müdiri, professor Samir Cavadzadə, Akademik Mirməmməd Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının direktoru, tibb elmləri doktoru Fariz Babayev, həmin xəstəxananın baş həkimi Nicat Kərimov, sabiq deputat və sabiq Xarici İqtisadi Əlaqələr naziri Hafiz Babayev Lənkəran REM-də şəhid Mahsun Bağırzadənin xatirə guşəsinin önünə gül dəstələri qoyublar.

Sonra qonaqlar Heydər Əliyev Xatirə parkında Ulu Öndərin abidəsini ziyarət edib, önünə təzə qərənfillər düzüblər.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilib.

Elmi seminarın moderatoru Lənkəran REM-in elmi katibi Cəmil Quliyev qonaqları tədbir iştirakçılarına təqdim etdikdən sonra akademik Mirməmməd Cavadzadənin həyatı və elmi fəaliyyətini əks etdirən video-çarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan Lənkəran REM-in direktoru Mehman Qaraxan oğlu Əliyev bildirib




ki, ölkə Prezidenti İlham Əliyev 18 mart 2025-ci il tarixdə Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

Dövlət başçısının bu Sərəncamı AMEA üçün tarixi hadisə, Azərbaycan elminə, aliminə, ölkəmizin intellektual təbəqəsinə verilən ən yüksək dəyərdir. Həmçinin sözü gedən sənəd həyatını elmə həsr etmiş, ölkəmizdə elmi



məktəblər yaratmış görkəmli alimlərimizin adı ilə bağlı olan elmi ənənəyə qayıdışa da imkan verir. Son üç ilə yaxın dövr ərzində ali elmi qurumda aparılan yenilənmə və islahatlar Milli Elmlər Akademiyasının cəmiyyətdəki nüfuzunun bərpa olunmasına və elmimizin azərbaycançılıq istiqamətində inkişaf etdirilməsinə öz təsirini göstərir.

Direktor əlavə edib ki, bugünkü elmi seminarın əsas məqsədi Azərbaycan tibb elminin inkişafında əvəzsiz xidmətləri olmuş, dünya şöhrətli alim, akademik, dövlət mükafatları laureatı, Əməkdar elm xadimi, görkəmli uroloq, Ulu Öndərin ən sədaqətli dostlarından biri, regionumuzun fəxri Mirməmməd Cavadzadənin gənclərə örnək olan həyat və elmi fəaliyyəti haqqında geniş elmi informasiya verməkdir.

Sonra Mirməmməd Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının həkim-uroloqu, tibb üzrə fəlsəfə doktoru Əliməmməd Bağırovun “Akademik Mirməmməd Cavadzadənin Azərbaycan tibb elminə verdiyi töhfələr” və Lənkəran Rayon Mərkəzi Xəstəxanasının Urologiya şöbəsinin həkim-uroloqu Qabil Beşirovun “Akademik Mirməmməd Cavadzadənin uroloji sahəyə gətirdiyi yeniliklər” mövzularında məruzələri dinlənilib.

Müzakirələrdə Milli Məclisin sabiq deputatı və sabiq nazir Hafiz Babayev, Respublikanın Əməkdar müəllimi, hüquq elmləri doktoru, professor İbrahim Quliyev, Lənkəran Tibb Kollecinin direktoru, tibb üzrə fəlsəfə doktoru Mübariz Mustafayev, Mirməmməd Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının baş həkimi Nicat Kərimov, tarix üzrə fəlsəfə doktoru Teyyub Nəsirov, akademikin uşaqlıq dostu, uzun illər Lənkəran səhiyyəsinə rəhbərlik etmiş mərhum Mirkazım Miriyev oğlu Hacı Etibar Miriyevin çıxışları dinlənilib.

Məruzələrdə və çıxışlarda qeyd edilib ki, görkəmli uroloq-alim, tibb elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, respublikamızda uroloji məktəbin yaradıcısı Mirməmməd Cavad oğlu Cavadzadə Azərbaycan tibb elminin korifeyləri sırasında özünəməxsus layiqli yer tutur. 1966-cı ildə görkəmli alimin təşəbbüsü ilə Bakıda Respublika Uroloji Xəstəxanası yaradılıb. 1971-ci ildə onun rəhbərliyi ilə Cənubi Qafqazda ilk dəfə böyrək köçürülməsi əməliyyatı həyata keçirilib. O, 1971-1984-cü illərdə 30 böyrək köçürülməsi əməliyyatı aparıb. M.Cavadzadə 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə Əziz Əliyev adına Azırbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna rektor təyin edilib və ömrünün sonunadək bu institutun rəhbəri olub. O, urologiyanın problemlərinə həsr edilmiş 34 monoqrafiya və

> *O, urologiyanın problemlərinə həsr edilmiş 34 monoqrafiya və dərs vəsaitinin, 700-dən artıq elmi məqalənin müəllifidir*

dərs vəsaitinin, 700-dən artıq elmi məqalənin müəllifidir. Alimin əsərləri respublikamızda və onun hüdudlarından kənarda mütəxəssislər tərəfindən yüksək qiymətləndirilib. M.Cavadzadənin rəhbərliyi altında 17 elmlər doktoru, 71 elmlər namizədi, yüzlərlə yüksək ixtisaslı uroloq-həkim yetişib. Dünya şöhrətli akademik respublikada ictimai xadim kimi də yaxşı tanınıb, 9-12-ci çağırışlar Azərbaycan Respublikası Ali Sovetinin deputatı olub, Azərbaycan-Fransa Dostluq Cəmiyyətinin, Azərbaycan Uroloqlar Cəmiyyətinin, digər ictimai birlik və qurumların sədri kimi səmərəli fəaliyyət göstərib. Keçmiş SSRİ Tibb Akademiyasının müxbir üzvü, Avropa və Beynəlxalq uroloqlar cəmiyyətlərinin üzvü, Çexiyanın və Bolqarıstanın uroloqlar cəmiyyətlərinin fəxri üzvü idi.

Mirməmməd Cavadzadənin xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib, Ulu Öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə “Şöhrət” və “İstiqlal”ordenləri ilə təltif edilib. 2008-ci ilin avqust ayında vəfat edib, I Fəxri Xiyabanda dəfn olunub.

2009-cu ildə dövlət başçımızın qərarı ilə Respublika Klinik Uroloji Xəstəxanasına Mirməmməd Cavadzadənin adı verilib. Bakı şəhərində Tərlan Əliyarbəyov küçəsində yaşadığı 2 nömrəli binaya akademikin xatirə lövhəsi vurulub.

Sonda akademikin oğlu, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Urologiya kafedrasının müdiri, professor Samir Cavadzadə çıxış edərək atasının xatirəsini əziz tutduqları üçün tədbirin təşəbbüskarları və təşkilatçılarına minnətdarlığını bildirib.

Elmi seminarda Lənkəran ictimaiyyətinin nümayəndələri, elm adamları, ziyalılar, Lənkəran Tibb Kollecinin müəllim və tələbələri iştirak ediblər.

Sonda xatirə şəkilləri çəkilib.

**“LƏNKƏRAN”**




# Lənkəranlı şagirdlər “FIRST LEGO LEAGUE Explore” yarışında uğur qazanıblar

**“STEAM Azərbaycan” layihəsinin təşkilatçılığı ilə 7-9 yaşlı şagirdlərdən ibarət 40-dan çox komanda arasında “FIRST LEGO LEAGUE Explore” yarışının respublika turniri keçirilib.**



Yarışda Lənkəran STEAM Mərkəzində hazırlıq keçmiş “Mavi Xəzinə” komandası uğurlu çıxışı ilə seçilərək “Creative Model Design Award” (Kreativ Model Dizaynı) kubokuna layiq görülüb. Komandada Lənkəranın müxtəlif ümumtəhsil məktəblərinin şagirdləri yer alıb. Komandaya mentorluq edən Turanə Heydərlinin rəhbərliyi altında şagirdlər yarış zamanı öz modellərində yaradıcılığı, funksionallığı və texnoloji biliklərini uğurla nümayiş etdiriblər.

Layihə çərçivəsində uşaqlar həm də sualtı dünya və dəniz canlılarının qorunması mövzusunda araşdırmalar aparıblar. Bu mövzu əsasında modellərini quraraq həm texniki, həm də yaradıcı bacarıqlarını təqdim ediblər.

Qeyd edək ki, turnirin əsas məqsədi məktəblilərin elm, texnologiya və mühəndislik sahələrinə marağını artırmaq, onların analitik düşünmə, problem həlletmə və komanda işi bacarıqlarını inkişaf etdirmək olub.

**“Lənkəran”**

**Lənkəran Tarix Diyarşünaslıq Muzeyində ötən əsrin 70-90-cı illərində Azərbaycan kənd təsərrüfatının inkişafına böyük töhfə vermiş, Lənkəranda tərəvəzçilik üzrə qabaqcıl təcrübənin əsasını qoymuş Aslan Kəlbi oğlu İbrahimovun anadan olmasının 100 illiyinə həsr olunmuş xatirə tədbiri keçirilib.**



# NƏSİLLƏRƏ NÜMUNƏ

## *Aslan İbrahimovun soykökü, nəsil səcərəsi Lənkəran tarixinin şanlı bir səhifəsidir*

Xan Lənkəranımız həmişə Azərbaycan elminə, mədəniyyətinə, hərb sənətinə, təhsil və səhiyyəsinə, habelə kənd təsərrüfatına böyük şəxsiyyətlər bəxş edib.Təbii ki, belə şəxsiyyətlərdən biri də Aslan İbrahimovdur.

Aslan Kəlbi oğlu İbrahimov 1925-ci ildə Lənkəran rayonunun Mamusta kəndində anadan olmuş və kənd orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra, yəni 1942-ci ildə Lənkəran Subtropik Bitkilər Texnikumuna daxil olmuş, aqranomluq ixtisasına yiyələnmişdir. 1943-cü ildə hərbi xidmətə çağırılan Aslan İbrahimov Sovet qoşunlarının tərkibində İranın Bəndərabad limanında Sovet-İran ticarət attaşesində xidmət etmişdir. Ordudan təxris olunduqdan sonra 1946-cı ildən Mamusta kəndindəki N.Nərimanov adına sovxozda çay və tərəvəz, eləcə də kompleks tarlaçılıq briqadasının başçısı kimi əmək fəaliyyətinə başlamışdır.1977-ci ilə kimi həmin briqadaya rəhbərlik etmiş, bu müddət ərzində üç dəfə Lenin ordeninə, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin üç qızıl, dörd gümüş medalına, Azərbaycan Respublikasının "Tərəvəz Ustası" fəxri adına və bir çox fəxri fərmanlara, diplomlara layiq görülmüşdür. Eyni zamanda 1970-1977-ci illərdə Lənkəran Şəhər Partiya Komitəsinin üzvü, Rayon Sovetinin deputatı seçilmiş və Azərbaycan KP-nin XXVI və XXVII qurultaylarının nümayəndəsi olmuşdur.



Aslan İbrahimovun layiq görüldüyü bu dövlət təltiflərinin arxasında gərgin zəhmət, torpağa həddsiz bağlılıq, el-oba təəssübkeşliyi, əsl vətəndaşlıq mövqeyi, sonsuz Vətən sevgisi, əmək qəhrəmanlığı durdurdu. Bu yüksək mənəvi keyfiyyətlər, zəngin mənəviyyat isə ona mənsub olduğu soykökündən gəlirdi. Maraqlıdır ki, bu gün həmin soykökün varislərinin bəlkə də hamısı öz nəsil səcərəsini yaxşı bilir. Deyilənə görə, bu nəslin təxminən beş yüz il bundan qabaq Türkiyədən köç edərək əvvəl Naxçıvanda, sonra isə Qarabağda, o cümlədən Bərdə, Ağdam və Şuşada yaşayıblar. Lakin köç həyatı bununla bitmir. Sonradan əsrarəngiz Cənub təbiəti İbrahimovlar nəslinə qucaq açır. Talış xanlığı məskunlaşmaq üçün onlara Lənkəranda yer verir və nəhayət Mamusta kəndində yaşamağa başlayırlar. Köç etmiş nəslin başında əvvəl ulu babaları Mahmud durur. Bu nəslin törəmələri həm Türkəkəranda, həm də Mamustada həmişəlik məskunlaşırlar, yəni nəslin bir qolu Türkəkəran kəndində, bir qolu isə Mamusta kəndindədir.



## *Aslan İbrahimov artıq nəinki, kəntdə, ailədə də söz sahibi idi*

Mamustaya ilk köç edən Kərbəlayi Şəfəqqət dövrünün sayılıb seçilən ziyalılarından olub.Məhz onun başçılığı ilə İbrahimovlar nəsli Mamustanı ilk yaşayış məskəninə çevirir. Bu yaşayış massivi sonralar Mamusta adlı kənd kimi formalaşıb.

Kərbəlayi Şəfəqqət kəndin xeyirşərində həmişə öndə durub. İmkansızlara kömək edib, kənddə xeyriyyəçiliyin əsasını qoyub. Dini öz əqidəsinə çevirən Kərbəlayi oğlu İbrahimi beş il Nəcəfdə oxutdurub. Onun İbrahimdən başqa Mikayıl adlı daha bir oğlu olur. Lakin zehinli, fərasətli olduğundan İbrahimə daha çox diqqət ayırır, onu Həcc ziyarətinə göndərir. Hacı İbrahim Nəcəf şəhərində mükəmməl dini təhsil aldıqdan sonra Axund kimi Mamusta kəndinə qayıdır, təxminən 150 ilə yaxın yaşı olan hazırki, kənd məscidini tikdirir.-

Hacı İbrahimin ümumiyyətlə Mamustanın tərəqqisində, inkişafında xüsusi xidmətləri olub. O, kənddə ilk hamam tikdirib, eyni zamanda vaxtilə Daşdalıqjar kəndi ilə Mamusta arasında olan çayın üstündə ünsiyyət vasitəsi kimi körpü saldırır.1989-cu ildə arxeoloji qazıntı zamanı bu körpünün sütunları aşkara çıxıb.

Hacı İbrahimdən sonra nəslin aparıcılıq yükü Məşədi Kəlbinin çiyninə düşür. Hacı İbrahim öz səxavətini, dinə bağlılığını, zəngin mənəviyyatını oğlu Məşədi Kəlbidə gördüyündən varislik hüququ da təbii ki, ona çatıb. Mükəmməl dini təhsil alan Məşədi Kəlbinin Lənkəran şəhərinin Böyük Bazar hissəsində karvansarayı olub. Zəngin var-dövlətə malik olan Məşədinin səxavətindən, xeyriyyəçiliyindən indi də ağız dolusu danışanlar var.



Məşədi Kəlbinin nüfuz və hörməti bütün Lənkərana yayıldığından vəziyyət elə gətirir ki, Xanlığın inzibati ərazi rəhbəri Məşədi Ələsgər bəyin qızı Şərəbanu xanımla ailə həyatı qurur. Hətta Mirəhməd xanın arvadı Tuğra xanım bu izdivaca xeyir dua verərkən deyib: "O qızı Məşədi Kəlbiyə biz vermişik." Deyilənə görə Tuğra xanım Şərəbanudan hal-əhval tutmaq üçün tez-tez Mamustaya gəlib gedərmiş.

Sovet hökuməti qurulandan sonra başlanan repressiya bu ailədən də yan keçmədi. Məşədi Kəlbi 1929-cu ildə kulak adı ilə həbs ediləndə oğlu Aslan İbrahimovun cəmi dörd yaşı vardı. Evin bütün yükünü Şərəbanu xanım Məşədi Kəlbidən sonra öz çiyinlərində daşıdı. Lakin buna baxmayaraq ailə təlaş, qorxu içində yaşayırdı. 1941-ci ildə Aslan İbrahimovu müharibəyə göndərmək üçün hərbi komissarlığa çağırıblar, lakin yaşı az olduğundan buraxmağa məcbur olublar. 1942-ci ildə Aslanı bir də komissarlığa çağırılır. O, hərbi xidmətə İrana göndərilir. 1946-cı ilə kimi Bəndərabadda İran -Sovet ticarət attaşesində çalışır.

Aslan İbrahimov artıq nəinki ailədə, kənddə də söz sahibi idi. Babası Hacı İbrahimi görməsə də, atası Məşədi Kəlbini hələ dörd yaşında itirsə də, el-obada onların əməksevərliyi. torpağa bağlılığı, halallığı, xeyirxahlığı barədə çox eşitmişdi. Elə buna görə baba və atasının şərəfli yolunun nəinki davamçısı olmağı, hətta mənsub olduğu nəslin şərəf estafetini daha irəli aparmağı qarşısına məqsəd qoymuşdu. Kənddə yaşının azlığına baxmayaraq ağsaqqallıq məqamına ucalan Aslan İbrahimov öz gələcək əmək qələbələrinin bünövrəsini çayçılıqla qoydu. Çayçılıq briqadasına başçılığı müharibəyə gedən briqadir təcrübəli kənd təsərrüfatı işçisi Xudaverdi Qurbanova həvalə etmişdi. Sonralar geridə qalan tərəvəzçilik briqadasına başçı təyin edildi. 32 hektar sahədə müxtəlif tərəvəz bitkiləri yetişdirən briqada qısa müddət ərzində təkcə N.Nərimanov adına sovxozda deyil, Lənkəranda qabaqcıl təcrübənin ünvanına çevrildi.

Ötən əsrin 70-80-ci illərində Lənkəran keçmiş SSRİ məkanında Ümumittifaq tərəvəz bostanı kimi tanınır, ölkə üçün ən çox faraş tərəvəz istehsal edirdi. Dövlət planlarını rekord nəticələrlə yerinə yetirən rayonumuz dəfələrlə Sov.İKP MK-nın, SSRİ Nzirlər Sovetinin keçici Qırmızı Bayraqarına layiq görülmüşdü. Böyük əmək qələbələrinin qazanılmasında rayonun qabaqcıl təsərrüfatlarından olan N.Nərimanov sovxozunun da öz payı vardı.Aslan İbrahimovun briqadası hər hektardan hər il 450-500 sentner məhsul götürərək planı ikiqat yerinə yetirirdi.



Bu gün anadan olmasının 100 illiyini qeyd etdiyimiz Aslan İbrahimovun nə özü, nə çalışdığı Nərimanov savxozu, nə də vaxtilə ən yüksək əmək göstəriciləri ilə bütün Azərbaycana səs salan tərəvəzçilik briqadası durur. Bunlar artıq xatirələrə çevrilərək tarixə qovuşub. Aslan İbrahimovun övladları və nəvələri harada yaşamalarından, işləmələrindən asılı olmayaraq zəhmətkeşliyi, xeyirxahlığı, həddsiz vətən və el-oba sevgisini özlərinə meyar götürməklə onun şərəfli həyat yolunu ləyaqətlə davam etdirirlər.

Göründüyü kimi, Aslan İbrahimovun soykökü, nəsil səcərəsi Lənkəran tarixinin şanlı bir səhifəsidir. Təsadüfi deyil ki, muzeyimizdə bu böyük əmək qəhrəmanının müxtəlif dövrlərdə layiq görüldüyü dövlət təltifləri və həyatı ilə bağlı eksponatları qayğı ilə qorunaraq gələcək nəsillərə örnək kimi çatdırılır və haqqında qonaqlara müfəssəl məlumat verilir.

Fürsətdən istifadə edərək tədbirdə iştrak edən professor İbrahim Quliyevə, AYB Lənkəran Bülməsi sədri Qafar Cəfərliyə və bütün ziyalılara, qonaqlara minnətdarlığımı bildirirəm.



Yazımı Aslan İbrahimovun 100 illiyinə həsr etdiyim şeirlə bitirmək istəyirəm.

**Yaşadı şərəflə ömür payını,**
**Boranlı qışını, isti yayını.**
**Torpaq itirmədi haqqı-sayını,**
**Torpağa qovuşdu özü Aslanın.**

**Qızıl kimi baxdı günə, saata,**
**Layiq görülübdü hər mükafata.**
**Nəvənin gözüylə baxır həyata-**
**Sanma ki, yumulub gözü Aslanın.**

**Yatsa da əbədi qəm mənzilində,**
**Bizə qonaq gəlib O, yüz ilində.**
**Doğma Lənkəranda, döğma elində**
**Bitməyir söhbəti, sözü Aslanın.**

**Leyla MƏCİDOVA,**
**Lənkəran Tarix Diyarşünaslıq Muzeyinin direktoru.**



# “Aqroservis” ASC-nin İdarə Heyətinin sədri Lənkəranda vətəndaşları qəbul edib, təsərrüfatlara baş çəkib

*Fermerlərlə görüşdə kənd təsərrüfatı texnikaları və suvarma sistemlərinə görə dövlət dəstəyi mexanizmləri, həmçinin ölkədə kənd təsərrüfatının inkişafına yönəlmiş tədbirlər ətrafında geniş fikir mübadiləsi aparılıb*

**Kənd Təsərrüfatı Nazirliyinin vəzifəli şəxsləri bölgələrdə vətəndaş qəbullarını davam etdirir. Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədovun imzaladığı əmrə əsasən, “Aqroservis” ASC-nin İdarə Heyətinin sədri Mehman Veysəlov aprelin 11-də Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında bu rayondan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.**

Qəbul zamanı vətəndaşların müraciətləri əsasən işə qəbul, gübrə ilə təminat, kəndlərdə səyyar satış xidmətinin təşkili, rayonun ucqar kəndlərinə kombaynların ayrılması və digər məsələlərlə bağlı olub. İdarə Heyətinin sədri Mehman Veysəlov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll olunması üçün aidiyyəti üzrə tapşırıqlar verib. Bəzi müraciətlər yerindəcə həllini tapıb, bir sıra məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə müvafiq qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

Vətəndaşlarla görüş zamanı Mehman Veysəlov Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların bu sahədə çalışanların rifah halının yaxşılaşdırılması və ölkə üzrə kənd təsərrüfatının ümumi inkişafına mühüm təkan verdiyini vurğulayıb. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Qəbuldan sonra Mehman Veysəlov rayonda salınmış intensiv bağlara və çiyələk plantasiyalarına baş çəkib, aparılan aqrotexniki tədbirlərlə tanış olub. Fermerlərlə görüşdə kənd təsərrüfatı texnikaları və suvarma sistemlərinə görə dövlət dəstəyi mexanizmləri, həmçinin ölkədə kənd təsərrüfatının inkişafına yönəlmiş tədbirlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Suvarma mövsümünə ciddi hazırlıq görülür

*İdarənin kollekitvi bütün səylərini səfərbər edib*





**Prezident İlham Əliyevin Dövlət Su Təsərrüfatı Agentliyinin yaradılması haqqında 30 mart 2023-cü il tarixli müvafiq Sərəncamından sonra Lənkəran Su Meliorasiya Sistemləri İstismarı İdarəsində də işlər xeyli canlanıb.**

Kollektivin üzvləri idarənin rəisi Mirsəmid Hüseynovun rəhbərliyi ilə bu ilin suvarma mövsümünə ciddi hazırlıq görürlər. Belə ki, idarənin ayrı-ayrı briqadaları tərəfindən qısa müddətdə rayonun Bürcəli kəndində su təmizləyici qurğusunun ərazisində təmizlik işləri aparılmış, Göyşaban kəndində d 110 /32 mm lik servis birləşməsində yaranan su qəzası bərpa olunaraq abonentə suyun verilməsi təmin olunmuş, şəhərin H.Z.Tağıyev küçəsində yerləşən 1 saylı KNS-də sıradan çıxmış 40 kvt lıq mühərrik 55 kvt lıq mühərriklə əvəz olunmaqla nasos stansiyanın fəaliyyəti bərpa olunmuş, xidməti ərazidə magistral su kanalının eroziyaya uğramış yamaclarında betonlama işləri aparılmış, Hafthoni qəsəbə ərazisindən keçən kanallar tullantılardan və lildən təmizlənmişdir.

Bu istiqamətdə tədbirlər mütəmadi davam etdiriləcəkdir.

# Lənkəranda yeni çay plantasiyaları salınır

***Əkin sahələrinə yaxın yerlərdə iri su hövzələrinin olması suvarılmanın vaxtında aparılmasına şərait yaradır***

**“Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq, Lənkəran rayonunun ərazisində daha 1500 hektar sahədə yeni çay plantasiyalarının salınması nəzərdə tutulub. Hazırda bu istiqamətdə müvafiq işlər həyata keçirilir.**





Təsərrüfatlarda polietilen paketlərdə “Kolxida” çay toxumları əkilir. Təsərrüfatçı Dilbər Nəsirova deyir ki, çay bitkiləri oktyabr-noyabr aylarında sahələrə köçürülür. Bu, əziyyətli iş olsa da, bəhrəsini də görürlər.

30 ildən çoxdur çayçılıq sahəsində çalışan aqronom Mirağa Həsənovun sözlərinə görə, əkildən sonra çay bitkilərinə lazımi qaydada qulluq göstərilir, sahələr gübrələnir. Çay plantasiyalarının suvarılması üçün müasir suvarma sistemlərindən istifadə edilir. Əkin sahələrinə yaxın yerlərdə iri su hövzələrinin olması suvarılmanın vaxtında aparılmasına şərait yaradır. Bu isə mövsüm boyu sahələrdən bir neçə dəfə yaşıl çay yarpağı toplamağa imkan verir.

**“May ayının əvvəlindən çay yarpağı yığmağa başlayırıq. Proses oktyabra qədər davam edir. Bu müddət ərzində 6 dəfə məhsul yığa bilirik”**, - deyə o əlavə edir.

Qeyd edək ki, hazırda Lənkəranda 540 hektardan artıq çay plantasiyası var. Bunun təxminən 392 hektarından məhsul yığılır. 149 hektarı isə yeni salınıb. 2024-cü ildə rayonda 304,8 ton məhsul toplanıb.

# Çiyələk əkinlərinin sığortalanmasına start verilib

*Fermerlər əkinlərini sərfəli şərtlərlə, cüzi ödəniş etməklə sığortalaya bilirlər*

**Azərbaycanda meyvə bağları və giləməyvə əkinlərinin dövlət dəstəkli sığortalanması prosesi davam edir.**



Aqrar Sığorta Fondundan bildirilib ki, artıq ölkə üzrə çiyələk əkinlərinin aqrar sığortasına başlanılıb.

Ölkəmizdə çiyələk plantasiyalarının sahəsi ildən ilə artır. 2023-cü ildə 313 hektar, 2024-cü ildə isə 221 hektar yeni çiyələk bağı salınıb. Hazırda Azəbaycanda 4 256 hektar sahədə çiyələk və digər giləmeyvə növləri əkilib. Bu əkinlərin 4 min hektarı artıq bara düşüb.

Çiyələk ən çox Cəlilabad (600 hektar), Lənkəran (360 hektar), Masallı (300 hektar), Şəmkir (300 hektar) rayonları ərazisində əkilir.

Çiyələk plantasiyalarında illik orta məhsuldarlıq 10 ton / hektara yaxın təşkil edir. Cəlilabad rayonu üzrə ötən il rekord səviyyədə - 32 ton/hektar orta məhsuldarlıq qeydə alınıb.

Azərbaycanda dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizmi çiyələk əkinlərini çoxsaylı risklərdən - dolu, doludan keyfiyyəti itkisi, fırtına-qasırğa, sel-subasma, 3-cü şəxslərin hərəkəti, vəhşi heyvanların hücumu və sair hadisələrdən sığortalayır.

Fermerlər əkinlərini sərfəli şərtlərlə, cüzi ödəniş etməklə sığortalaya bilirlər. Sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir.

1000 manatlıq çiyələk məhsulunun sığortalanması fermerlərə Lənkəran-Astara regionunda 14,7 manata, Mərkəzi Aran regionunda 14,2 manata, Qazax-Tovuz regionunuda 30,7 manata, Quba-Xaçmaz regionunda isə 16 manata başa gəlir.

Aqrar sığorta məhsulları, əkinlərin və heyvanların sığortalanması şərtləri və sığorta haqları barədə ətraflı məlumatı Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsindən (asf.gov.az), eləcə də 1651 Çağrı Mərkəzinə müraciət etməklə almaq mümkündür.

*Səhifəni hazırladı: Ağəddin Babayev*

# "Nəsrimizin ağır artilleriyası"





**AYB Lənkəran Bölməsinin "Söz" Ədəbi Məclisində xalq yazıçısı Süleyman Rəhimovun anadan olmasının 125 illiyi münasibətilə "Nəsrimizin ağır artilleriyası" adlı tədbir keçirilib. Tədbirdə bölgə yazarları, ziyalılar və gənclər iştirak ediblər.**

Tədbiri giriş sözü ilə bğlmənin sədri, yazıçı-dramaturq Qafar Cəfərli açıb. Daha sonra görkəmli yazıçının həyat və yaradıcılığı barədə məruzə oxunub.

Çıxış edənlər Süleyman Rəhimovun XX əsr Azərbaycan nəsrində xüsusi mövqeyə malik olduğunu vurğulayıblar. Yaratdığı möhtəşəm obrazlar qalereyası ilə hər zaman anılacaq yazıçının əsərlərinin bu gün də sevilə-sevilə oxunduğu bildirilib.

Natiqlər böyük söz ustadı ilə bağlı xatirələrini, onun möhtəşəm əsərləri haqqında fikir və düşüncələrini bölüşüblər.

Tədbirdə iştirak edən gənclərin sovet və müasir dövr yazarları ilə bağlı fikirləri maraqla qarşılanıb.

**Sehran ƏLİYEV**



# "Şəfəq"in təqdimatında




**Azərbaycan Jazıçılar Birliyi Lənkəran Bölməsinin Söz" Ədəbi Məclisində Bölmənin ədəbi-bədii orqanı olan "ŞƏFƏQ" jurnalının 2025-ci ilin 1-2-ci sayının təqdimatı keçirilmişdir. Təqdimatda bölgədə yaşayıb-yaradan yazarlar istirak ediblər.**

Çıxış edənlər jurnalda çap olunan yazılarla bağlı fikir və düşüncələrini bölüşərək, arzu və təkliflərini bildiriblər.



Şairlərin ifa etdikləri şeirlər tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

**S.YƏDULLAOĞLU**

# Lənkəranda "Şahin" hərbi-idman oyunlarının rayon birinciliyi keçirilib





**Lənkəranda gənclərin fiziki hazırlığını yüksəltmək, vətənpərvərlik ruhunu gücləndirmək və onların hərbi-idman bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə "Şahin" hərbi-idman oyunlarının rayon mərhələsi keçirib. Yarış zamanı iştirakçılar müxtəlif mərhələlər üzrə sınaqlardan keçiblər. Buraya sıra hazırlığı, fiziki dözümlülük, sərrastlıq, maneələr zolağından keçid, ilkin tibbi yardım bacarıqları və digər tapşırıqlar daxil olub. Komandaların həm taktiki hazırlığı, həm də komandadaxili birlik və koordinasiya bacarıqları xüsusi diqqət mərkəzində olub.**

Lənkəran rayonu ümumtəhsil məktəblərindən təşkil olunmuş 18 komandanın iştirak etdiyi hərbi-idman oyununda Lənkəran şəhər V.Əliyev adına 4 nömrəli humanitar təmayüllü məktəb-liseyi 3-cü yerə, Hirkan qəsəbə tam orta məktəbi 2-ci yerə layiq görülüb, Haftoni qəsəbə tam orta məktəbinin komandası isə 1-ci yeri tutaraq zona mərhələsinə vəsiqə qazanıb.

Rayon mərhələsinin qalibi olan komanda Lənkəran şəhərində keçiriləcək zona birinciliyində rayonu təmsil edəcək.

Qeyd edək ki, "Şahin" hərbi-idman oyununun keçirilməsində məqsəd məktəblilərin ordu sıralarında hərbi xidmətə hazırlanması, gənclərin vətənpərvərlik, milli qürur və milli ləyaqət ruhunda tərbiyə edilməsi, onların mənəvi-psixoloji və hərbi-fiziki hazırlığının təmin olunmasına kömək göstərmək, "Şanlı Zəfər" tarixini təbliğ etməkdən ibarətdir.

**"Lənkəran"**


## ƏZİZ OXUCULAR!

**2025-ci ilin birinci yarımili üçün "Lənkəran" qəzetinə abunə kampaniyası davam edir.**

**ALTI AYLIQ ABUNƏ QİYMƏTİ 20 MANATDIR.**

**Əlavə məlumat almaq üçün redaksiyamıza (02525) 5-35-05 və ya (050) 362-35-14 (mobil) nömrələrinə zəng vura bilərsiniz.**

**"Lənkəran" qəzeti**


## Allah rəhmət eləsin!

Qələm yoldaşları tanınmış şair Tərlan Əbilova
**ANASININ**
vəfatından kəndərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Baş redaktor
Əlimərdan ƏLİYEV

HESAB NÖMRƏMİZ:
AZ30AIIB33010019443860238138
VÖEN 2600244411
Kapital Bankın
Lənkəran filialı
lisenziya № V 343
İndeks: 66920

ÜNVANIMIZ:
Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-jü mərtəbə)
Telefonlar: 255-35-05, 255-35-49
E-mail:
lenkeranqezeti@mail.ru

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur.
Tiraj: 300